# "SOSİAL JURNALİSTİKA", YOXSA "SİMLİ TELEQRAF"

Müstəqil Azərbaycanda mətbuat və söz azadlığı adi şüar deyil!

Bu azadlıq müvafiq qanunvericilik bazası əsasında möhkəmləndirilib, real həyatda atılan konkret addımlarla təsdiqini tapıb!

Nədir bunlar?

Əvvəla, Azərbaycanda mətbuata senzura nəzarəti tam və birdəfəlik ləğv edilib!

İkincisi, KİV dövlət nəzarətindən çıxarılıb və hətta bu gün dövlət mətbuata nəzarət etmək istəsə belə, onun əlində arzusunu gerçəkləşdirəcək heç bir vasitə yoxdur!

Üçüncüsü, "Kütləvi informasiya vasitələri haqqında" qanuna əsasən Azərbaycanda qəzet təsis etmək və ya sayt yaratmaq üçün xüsusi prosedurlarla uzadılan maneələr yoxdur! Azərbaycanda qəbul edilmiş KİV haqqında qanun dünyanın ən loyal qanunlarından biridir. Bu qanun əsasında KİV təsis etmək üçün bir ərizə yazaraq bir həftə gözləmək kifayətdir! Sonra işə başlaya bilərsən!

Ən nəhayət, o yerdə ki, internet mövcuddur, o yerdə ki, sosial şəbəkə fəaliyyətdədir, orada hətta söz azadlığının məhdudlaşdırılmasından belə danışıla bilməz! Çünki istənilən anda hər kəs öz bildiklərini və düşündüklərini yüzlərlə, hətta minlərlə insana bildirmək, "paylaş"maq imkanına malikdir.

Azərbaycan əhalisinin isə 75 faizi internet istifadəçisidir!

Deyilənləri yekunlaşdırsaq: Azərbaycanda hüdudsuz söz azadlığı mövcuddur - qənaətinə gələrik!

Və hətta bəzən bunun "fəsad"ları da olur!




❖ ❖ ❖

Son dövrlərdə Azərbaycan mətbuatında da tez-tez "sosial jurnalistika" terminindən istifadə halları artıb. Maraqlıdır ki, "sosial jurnalistika"nın mövcudluğundan danışanların arasında jurnalistika sahəsində çalışanlar, jurnalistikadan az-çox başı çıxanlar da var. Jurnalistikanın nə demək olduğu barədə təsəvvürü olmayanların belə istilah işlətmələrini haradasa anlamaq olar. Amma jurnalistikanın prinsip və qaydalarını (hələ bu sahədəki mövcud qanunları demirik) bilənlərin internet şəbəkədə baş verənləri xüsusi fəaliyyət sahəsi sayılan jurnalistikaya şamil edərək "xəbər mübadiləsi" adlandırmaları təəccüb doğurmaya bilmir. İstəyir lap Avropa və dünya da bunu "təsdiqləsin"! Söhbət "xoşagələn" ifadə işlədilməsindən yox, "jurnalist" adının paklığına hörmətlə yanaşılmasından gedir!

**Heç gizlətmirəm də, "sosial jurnalistika" anlayışını qəbul etmək istəmirəm!**

**Hətta bunu jurnalistikaya təcavüz kimi qiymətləndirirəm!**

**Əvvəla, hər şeyin öz adı ilə çağrılmasını istəyirəm, digər tərəfdən "qaydasızlıqla" prinsipliliyin qarışdırılmasını düzgün saymıram!**

❖ ❖ ❖

Hələ kompüterin və internetin olmadığı, hətta yüzdə bir mənzilə telefon çəkildiyi vaxtlarda "simsiz teleqraf" ifadəsi mövcud idi. Haradasa, kimsə, nəsə deyəndə (şübhəsiz, çoxlarında maraq doğura biləcək məsələ barədə) qısa müddətdə ağızdan-ağıza yayılırdı. Bəzən hətta elə geniş yayılırdı ki, ilk mənbəni dəqiq müəyyənləşdirmək belə çətin olurdu.

Amma "simsiz teleqraf"la gələn xəbərlərin doğru çıxdığı vaxtlar da olurdu. Adətən, bunu kişilərin "ev boşboğazlığı" ilə izah edirdilər. Məsələn, müəyyən vəzifə tutan, yaxud informasiya mənbəyinə yaxın olan kişilər işdən qayıdıb yemək yeyən zaman arvadlarının çoxsaylı və tükənməyən suallarını cavablandırarkən bəzən informasiyanı sızdırırdılar. Rəfiqələrin bildikləri xəbərləri dərhal bölüşmələri təşnəsi isə "gizli məlumatlar"ın tezliklə qeyri-rəsmi şəkildə ictimailəşməsinə səbəb olurdu.

Tələbə vaxtı biz bu cür informasiyaları bölüşərkən "arvadinformun verdiyi məlumata görə" adı ilə "mənbə" göstərərdik. Zarafatla deyilsə də, əslində, belə "mənbə" həqiqətən də var idi.

Həmin dövrün deyilənləri təsdiq edən lətifələrindən biri:

*"Gənc əsgər özünü hövlnak şəkildə komandirin kabinetinə salır. Hərbi təzimsiz, filansız təşvişlə məruzə edir:*

*- Yoldaş polkovnik, deyirlər ki, bizim hərbi hissəni ləğv edirlər, sizi isə başqa yerə göndərirlər!*

*- Kim deyir? - deyə polkovnik acıqlı-acıqlı əsgərdən soruşur.*

*- Səhər-səhər bazara getmişdim, arvadlar danışırdılar!*

*Komandir rahat nəfəs alaraq gülümsəyir, sonra üzünü əsgərə tutaraq:*

*- Belə şayiələrə inanma, get işinlə məşğul ol! - deyə əmr edir.*

*Bir neçə saatdan sonra hərbi hissənin komandirinə baş qərargahdan telefonoqramma gəlir: "Hərbi hissə ləğv olunur, təhvil-təslimə hazırlaşın!"*

*Komandir dərhal həmin əsgəri çağırtdıraraq ciddi tapşırıq verir:*

*- Tez qaç bazara, arvadlardan öyrən gör məni hara təyin edəcəklər!"*

❖ ❖ ❖

Keçmiş dövrdə şüurlu və məqsədyönlü şəkildə hazırlanaraq cəmiyyətə ötürülən informasiyalar da vardı. Belə ki, sovet dövründə nə söz azadlığı mövcud idi, nə fikir plüralizmi, nə də alternativ informasiya! Sosializm quruluşunu, onun ayrı-ayrı rəhbərlərini gözdən salmaq üçün dəqiqliyi bilinməyən müəyyən informasiyalar ağızlarda dolaşırdı. Mənbələr qadağan olunmuş radiostansiyalarda (sovet dövründə xarici radiostansiyaların verilişlərinin SSRİ ərazisində yayımı qadağan idi) gedən verilişlər, yaxud başqa kanallarla ölkəyə sızdırılan informasiyalar da olurdu. Eyni zamanda, SSRİ ilə "soyuq müharibə" aparan ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi kommunizmi gözdən salan lətifələr hazırlayaraq SSRİ-yə ötürürdü. Bəzən insanlar onların mahiyyətinə fikir vermədən gülməli olduğu üçün bir-birlərinə söyləyərək yayırdılar.

Bu tip lətifələr isə (siyasi lətifələr) "ağız ədəbiyyatı" adlanırdı. Belə lətifələrdən biri:

*"Amerikalı, fransız və rus Tanrının yanına gedərək ondan bir məsələni öyrənmək istəyirlər.*

*Əvvəlcə amerikalı müraciət edərək ABŞ-da kommunizmin haçan qurulacağını soruşur. Tanrı:*

*- Yüz ildən sonra - deyir.*

*Amerikalı ağlamağa başlayır. Səbəbini soruşanda:*

*- Mən o günü görməyəcəyəm! - deyir.*

*Sonra fransız eyni sualla müraciət edir:*

*- İki yüz ildən sonra - cavabını alanda o da ağlamağa başlayır:*

*- Mən də həmin vaxtadək yaşamayacağam! - deyir.*

*Sonra rus xəbər alır. Sualı eşidən kimi Tanrı özü ağlamağa başlayır. Bundan təəccüblənənlərə cavab sadə olur:*

*- Heç mən özüm də həmin günü görməyəcəyəm!"*

Məqsəd aydındır. Əslində, bu lətifə kommunizm mümkünsüzlüyünün yumorla söylənilməsi idi. Həmin dövrün ideologiyasına zidd olduğundan belə şeyləri danışmaq təhlükəli sayılırdı. Amma lətifə olduğu üçün hamı gizlində bir-birinə deyib gülür, kommunizm ideologiyasını lağa qoyurdu.




❖ ❖ ❖

**Artıq "simsiz teleqraf" da, "ağız ədəbiyyatı" da internetə "köçüb". Beləliklə, qısa müddətdə çox geniş yayılma imkanı qazanıb. Digər tərəfdən, heç kəs bunları qadağan etmir! Nə qədər istəyirsən danış və yaz!**

**Amma bütün bunlar jurnalistika deyil!**

Bu gün sosial şəbəkələrdə yayımlanan xəbərlərin çox böyük hissəsi ictimai əhəmiyyət kəsb etmir!

*Xəbər isə ən əvvəl ictimai mahiyyət daşımalıdır!*

Jurnalistikanın digər prinsip və qaydalarından bəhs etməzdən öncə hələ antik dövrdə yunanların bəyan etdikləri və bu gün də yaşayan bir qaydanı yada salmaq istəyirəm:

*"Özünə rəva görmədiyini, başqalarına da rəva bilmə!"*

Sosial şəbəkədə təhqiramiz söz və ifadələr tez-tez səslənir, qisas xarakterli yalançı informasiyalar yayılır və buna görə bir-birini məhkəməyə verənlər də olur. Başqa sözlə, hər kəs ağlına və ağzına gələni yazıb yerləşdirə bilir. Necə deyərlər, qalıb hərənin öz qanacağına!

İkinci məqam isə *jurnalistikanın peşə davranışı kodeksinə "sosial jurnalistika" "statusu" vermək istədiyimiz "sosial şəbəkə"lərin hansı səviyyədə cavab verməsidir.*

Və ümumiyyətlə, cavab verirmi?!

Qeyd etdiyimiz kimi, jurnalistikanın fəaliyyəti qanunlar və qəbul edilmiş qaydalar, prinsiplərlə tənzimlənir. Bu hüquqi aktlarda təkcə jurnalistlərə verilən azadlıqlar, onların hüquq və səlahiyyətləri deyil, həm də məsuliyyətləri qeyd olunur. Fəaliyyətlərinin məhdudlaşdırıldığı məqamlar, nəzərə almalı olduqları məsələlər də qanun və kodekslərdə müxtəlif şəkildə əksini tapmışdır.

**Bir neçə zəruri məqama diqqət yetirək: Əvvəla, "başqasının hüquqları başlanan yerdə sənin azadlığın qurtarır" prinsipi mövcuddur, digər tərəfdən isə KİV və jurnalistlər də dövlət sirrini (onların siyahısı müəyyənləşib) qorumağa borcludurlar. Ən nəhayət, dövlət təkcə mətbuat və söz azadlığını yox, həm də insanların şərəf və ləyaqətini hücumlardan və aşağılanmalardan (o cümlədən mətbuat səhifələrində və elektron resurslarında) qorumalıdır və qoruyur.**

**Dediklərimizi bir qədər konkretləşdirək.**

Azərbaycan Respublikasının Konstitusiyasının "Fikir və söz azadlığı" adlanan 47-ci maddəsinin I bəndində deyilir: *"Hər kəsin fikir və söz azadlığı vardır".* Maddənin III bəndində isə "nə olmaz" xatırladılır: *"İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir".*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun "Kütləvi informasiya azadlığı" adlandırılan I maddəsinin birinci cümləsi belədir: "Azərbaycan Respublikasında kütləvi informasiya azaddır". Həmin qanunun "Kütləvi informasiya azadlığından və jurnalist hüquqlarından sui-istifadəyə görə məsuliyyət" adlı 60-cı maddəsində isə aşağıdakılar göstərilir:

*"Kütləvi informasiya vasitəsinin redaksiyası (məsul redaktoru) və jurnalistlər (müəlliflər):*

*1) açıqlanması qanunla qadağan edilən məlumatları açıqladıqda;*

*2) baş redaktor (redaktor) mətbu nəşrdə çap olunan materialların bu qanunun tələblərinə uyğun hazırlanmasına nəzarət etmədikdə;*

*3) bu qanunda göstərilmiş hallardan başqa informasiyanı onun mənbəyini göstərmədən yaydıqda;*

*4) vətəndaşların şəxsi həyatına qəsd etdikdə;*

*5) pornoqrafik materialları dərc etdikdə və ya efirə verdikdə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə mülki, inzibati, cinayət və digər məsuliyyət daşıyırlar".*

İndiyədək dünyada mətbuat və söz azadlığı, onun müxtəlif qəsdlərdən qorunması ilə bağlı çoxsaylı sənədlər qəbul edilib. Bir çox ölkələrdə isə (əsasən demokratik) jurnalistlərin peşə davranışı kodeksləri mövcuddur. Belə bir sənəd Azərbaycanda da - 15 mart 2003-cü ildə jurnalistlərin birinci qurultayında qəbul edilmiş, sonradan ATƏT-in və Mətbuat Şurasının birgə layihəsi əsasında təkmilləşdirilmişdir.

**Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları adlanan bu sənəd dörd prinsip üzrə qruplaşdırılmış qaydalar toplusudur. Əslində, bu qaydalar da "qızıl qaydalar" sayıla bilər. Həmin prinsiplərin bir neçəsinə diqqəti cəlb edirik:**

*1.1. Jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır, obyektivlik isə əsas peşəkarlıq meyarıdır.*

*1.2. Jurnalist hazırladığı yazıda tənqid obyektinin mövqeyini öyrənib bildirməlidir. Bu, mümkün olmadıqda, tənqid obyekti tələb edərsə, öz fikirlərini çatdırmağa çox qısa vaxtda ona şərait yaradılmalıdır. Plüralizm prinsipinə əməl edilməlidir.*

*3.1. Jurnalist adamları millətinə, irqinə, cinsinə, dilinə, peşəsinə, dininə, yaşadığı və ya anadan olduğu yerinə görə pisləməməli, ehtiyac duyulmadıqda onlar haqqında bu qəbildən olan bilğiləri qabartmamalıdır.*

*3.2. Jurnalist görüşdüyü, haqqında yazdığı hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdır.*

*3.3. Jurnalist vətəndaşların şəxsi həyatına aid faktları, onlar cəmiyyətin maraqlarına toxunmursa, hüquqa zidd deyilsə və ya ictimai əhəmiyyət kəsb etmirsə, özlərinin razılığı olmadan yaya bilməz.*

*3.4. Jurnalist və kütləvi informasiya vasitəsi (internet xəbər portalı və digər elektron media vasitələri) buraxdığı səhvi, həmin səhvi kimin müəyyən etməsindən asılı olmayaraq, maksimum qısa müddətdə və tam həcmdə aradan qaldırmalıdır. Düzəliş zamanı aydın olmalıdır ki, əvvəl verilən məlumat tam, yoxsa konkret hansı hissədə səhvdir.*

*3.6. Bədbəxt hadisələr və ya cinayət nəticəsində zərər çəkmiş şəxslərin razılığı olmadan onların adları açıqlanmamalı, şəkilləri verilməməlidir. Bu, yalnız xüsusi məqamlarda və zərərçəkənin ictimai fiqur olduğu hallarda mümkündür. Əgər cinayəti yeniyetmələr və ya uşaqlar (18 yaşı tamam olmamış şəxslər) törədibsə, bu zaman da cinayətkarın adını açıqlamaqdan və şəklini yaymaqdan çəkinmək lazımdır.*

*4.7. Jurnalist yazılarında vulqar ifadələrin, jarqonların işlədilməsindən çəkinməli, Azərbaycan dilinin zənginləşməsinə öz töhfəsini verməklə yanaşı, onun təmizliyinin qorunub saxlanmasına da çalışmalıdır.*

Sitat bir qədər uzun görünsə də, biz yalnız ən vaciblərini xatırlada bildik. Həm də bunlar KİV-də daha çox gözlənilməli olan, lakin heç də həmişə gözlənilməyən məqamlara aiddir.

Göründüyü kimi, AJPDQ-da mətbuatın təmizliyi və nüfuzu naminə jurnalistlərin nədən çəkinmələri, yaxud hansı məqamlarla əlaqədar ehtiyatlı davranmalı olduqları tövsiyə edilir. Çünki əsas məsələ obyektiv, tərəfsiz, qərəzsiz və ümummilli maraqlara xələl gətirməyən informasiyanın ictimailəşdirilməsidir. Həm də bu zaman insanların şəxsi həyatının toxunulmazlığı, şərəf və ləyaqətlərinin aşağılanmaması da önəmlidir.

**Yaxşı, hansı bir sosial şəbəkədə - "Facebook", "Twitter"də - bu prinsip və qaydalar qorunur? Heç birində! Çünki orda "paylaşan"ların bir çoxunun jurnalistikada belə qayda və prinsiplərin mövcudluğundan hətta xəbərləri yoxdur!**

**Onda hansı əsaslarla qaydasızlıq hökm sürən sahəni qayda və prinsiplərlə fəaliyyət göstərən jurnalistika hesab etməliyik?**

Bu gün dünyada və Azərbaycanda internet var, insanların bir-birlərilə ünsiyyət qurduqları, fikir paylaşdıqları "sosial şəbəkə" deyilən virtual sahə var. Burada maraqlı və ziddiyyətli proseslər gedir. **Bir tərəfdən mövcud olan "virtual dünya" qanunlarla idarə olunmur, hüdudsuz sərbəstlik göstərir. Digər tərəfdən özünün qaydaları, "yazılmamış qanunları" tam formalaşmayıb. Odur ki, hərə öz istəyinə, səviyyəsinə və ağlına uyğun şəkildə yazışmalar aparır. Amma həm də burada deyilən söz, söylənilən fikir müəyyən mənada ictimailəşmiş sayılır. Təəssüf ki, söz sahibləri bunu həmişə nəzərə almırlar, bəzən rəqiblərinə qarşı kobud, təhqiramiz ifadələr işlədirlər. Bir daha təkrar edirik: jurnalistikanın elementar qaydalarına əməl olunmayan, sözdən ehtiyatsız, məsuliyyətsiz istifadə edilən bir sahəni necə jurnalistika - "sosial jurnalistika" adlandırmaq olar?**

Ölkəmizdə yeni - müstəqil jurnalistikanın formalaşması prosesi hələ başa çatmayıb. Niyə formalaşma deyirik? Axı, Azərbaycanda ilk dəfə olaraq sözün həqiqi mənasında azad jurnalistika yaranıb! Düz 123 ildən sonra mətbuatı və ictimai fikri çərçivədə saxlayan senzura adlı buxov ulu öndər Heydər Əliyev tərəfindən sındırılaraq atılıb. "Çərçivəli", "sığallı" jurnalistikadan imtina etmişik! Sərbəstliyin hüdudlarını isə hələ də özümüz üçün aydınlaşdıra bilmirik!

**Bir sıra problemlər mövcuddur ki, onlar jurnalistikanın təkcə keyfiyyətinə yox, səviyyəsinə də mənfi təsir göstərir. Hələ də KİV-də AJPDQ mütəmadi olaraq pozulur, insanlar haqqında həqiqətə uyğun olmayan fikirlər səsləndirilir, şərəf və ləyaqətləri təhqir olunur. Ən xoşagəlməz hal odur ki, bütövlükdə jurnalistikanın peşəkarlıq səviyyəsi aşağı düşüb. Janrlar itmək üzrədir, araşdırma yazıları yox dərəcəsindədir, əyləndirici yazılar maarifləndirici materialları ciddi şəkildə sıxışdırıb, mətbuatda milli maraqlar qorunmur, müharibə vəziyyətində olan bir ölkədə hərbi mövzuda səriştəsiz və ziyanlı yazılar sayt və qəzet səhifələrinə yol tapır, vətənpərvərlik mövzusuna kifayət qədər diqqət yetirilmir!**

*Bu gün jurnalistikanın maddi və mənəvi problemləri ilə məşğul olaraq onları həll etmək lazımdır! Nəinki onun nüfuzunu daha da aşağı salacaq sahəni də zorla çiyninə qoyaraq bir qədər də gözdən düşməsinə şərait yaratmaq!*

Jurnalistika müstəqil dövlətimizlə, dövlətçiliklə sıx bağlı olan sahədir. Burada dövlətin daxili və xarici siyasəti, bu günü və gələcəyi ilə bağlı ciddi məsələlər müzakirə olunur, ictimai fikir formalaşır, müəyyən qərarların qəbuluna təsir edə biləcək rəy yaranır. Əslində, jurnalistika ciddi və məsuliyyətli insanların çalışdığı sahədir! Bura şəxsi maraqlarının əsiri olanların yeri deyil! Xaos və özbaşınalıqların baş alıb getdiyi sahələri jurnalistikaya aid etməyin, ona qatmağın özü məsuliyyətsizlikdir! Bu dövlət, bu millət, bu vətən bizimdirsə, onun haqqında ciddiyyətlə düşünüb, maraqlarını fədakarlıqla qorumağı bacaranlar söz sahibi olmalıdırlar!

**Azad və ictimai söz peşəkarların əlində olanda hamıya fayda gətirir, naşıların və qərəzlilərin sərəncamına veriləndə yox!**

**Bunu heç kəs, heç zaman unutmamalıdır!**

*Digər tərəfdən sosial şəbəkəyə "sosial jurnalistika" adı qoyaraq ona ictimai status vermək cəhdi "demokratiya əlaməti" deyil, yersiz tələskənlikdir!*

*Sosial şəbəkənin özü də buna hazır deyil!*

*Yalnız həqiqi jurnalistikadan, onun qayda və prinsiplərindən xəbərsizlər belə bir iddiada buluna bilərlər!*

**Tələsən təndirə düşər - deyiblər!**

**Təndirə düşənlər isə ən yaxşı halda yanırlar!**

**Bəxtiyar SADIQOV**